**UOT 1(091)** **Səh. (79-85)**
**DOİ:** https://doi.org/10.59849/2219-7370.2024.30.79

# XIX ƏSRDƏ AZƏRBAYCANDA MİLLİ ŞÜURUN FORMALAŞMASINDA ABBASQULU AĞA BAKIXANOVUN FƏLSƏFİ İDEYALARININ ROLU

**Əhmədli Rafail**
Azərbaycan Dövlət Pedaqoji Universitetinin Fəlsəfə və sosial elmlər kafedrasının müdiri, fəlsəfə elmləri doktoru, professor
ehmedli.rafail@mail.ru

## Xülasə

Məqalədə A. A. Bakıxanovun orta əsrlər şərq fəlsəfəsindən təsirlənməsi və rus ədəbiyyatının təsirilə realizmə meyllənməsi, yetkin bir mütəfəkkir kimi diqqəti cəlb etməsi, ədalət, humanizm, vətənpərvərlik, mənəvi saflıq, təvazökarlıq və. s. kimi insani keyfiyyətlər aşılayan əsərlərilə milli şüurun formalaşmasına təsiri təhlil olunur. Mütəfəkkirin vətənini, xalqını dünyanın sivilizasiyalı ölkələri və xalqları sırasında görmək istəməsi, kamil insana, düsünən zəkaya ümid bağlaması araşdörılır.

Eyni zamanda, A. A. Bakıxanovun Çar Rusiyasının Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasəti, ermənilərin və erməni kilsəsinin fitnəkarlığının müdafiə olunduğunu ifşa etməsi, azadlıq, ədalət, əxlaq kimi fəlsəfi kateqoriyalara münasibəti nəzərdən keçirilir.

**Məqsəd:** XIX əsri əvvəllərində Azərbaycanda milli şüurun formalaşmasında Abbasqulu Ağa Bakıxanovun ədəbi, fəlsəfi və realist əsərlərinin rolunu və yerini aydınlaşdırmaq.

**Metodalogiya:** Tarixilik və məntiqilik konteksində təhlil.

**Elmi yenilik:** XIX əsri birinci yarısında Azərbaycanda Car Rusiyasının işgalçılıq siyasəti, milli şüurun formalaşması və inkişafı istiqamətində Abbasqulu Ağa Bakıxanovun əsərlərinin mahiyyətinin göstərilməsi.

**Açar sözlər.** Fəlsəfi əsərlər, varlıq, insan azadlığının, əxlaq, ədalət, milli şüur, maarif.

# THE ROLE OF ABBASGULU AGHA BAKİKHANOV'S PHILOSOPHICAL THOUGHTS IN THE FORMATION OF NATIONAL CONSCIOUSNESS IN AZERBAIJAN IN THE 19TH CENTURY

**Ahmadli Rafail**
Azerbaijan State Pedagogical University
head of the department of Philosophy and social sciences, doctor of philosophy,
professorehmedli.rafail@mail.ru

## Summary

A. A. Bakıkhanov as a thinker who was impressed by medieval Eastern philosophy and turned to realism under the influence of Russian literature, emphasized justice, humanism, patriotism, moral purity, humility, etc. is depicted in the article. The impact of his works, which instill human qualities, on the formation of national consciousness is analyzed.

The thinker's desire to see his homeland and people among the civilized countries and peoples of the world. His hope for a perfect human being and intelligence has been researched.

At the same time, A. A. Bakikhanov's attitude towards the colonial policy of Tsarist Russia in Azerbaijan, the Armenian sedition and the exposure of the Armenian Church is discussed in the context of philosophical categories such as freedom, justice and morality.

**Aim**: to clarify the role and place of the literary, philosophical and realist works of A. A. Bakikhanov in the formation of national consciousness in Azerbaijan at the beginning of the 19th century.

**Methodology**: Analysis in the context of history and logic.

**Scientific innovation**: propound the importance of A. A. Bakikhanov's works in the direction of the occupation policy of Tsarist Russia, the formation and development of national consciousness in Azerbaijan in the first half of the 19th century.

**Keywords:** Philosophical works, existence, human freedom, morality, justice, national consciousness, education.

## РОЛЬ ФИЛОСОФСКИХ ИДЕЙ АББАСГУЛУ АГИ БАКИХАНОВА В ФОРМИРОВАНИИ НАЦИОНАЛЬНОГО САМОСОЗНАНИЯ В АЗЕРБАЙДЖАНЕ XIX ВЕКА

**Ахмедли Рафаил**
доктор философских наук, профессор,
Заведующий кафедрой философии и социальных наук
Азербайджанского Государственного Педагогического Университета
ehmedli.rafail@mail.ru

### Аннотация

В статье рассматривается влияние средневековой восточной философии на азербайджанского ученого и писателя А.А. Бакиханова. Склоняясь к реализму, под влиянием русской литературы А.А.Бакиханов, как зрелый мыслитель, привлекал внимание своими произведениями, влияющими на формирование национального сознания. Произведениями, которые развивали человеческие ценности: справедливость, гуманизм, патриотизм, нравственная чистота, скромность и т. д. Анализируется стремление мыслителя видеть свою родину и свой народ среди цивилизованных стран и народов мира, его надежда на совершенное человеческое существо и разумное мышление. В то же время разбирается отношение А. А. Бакиханова к таким философским категориям, как свобода, справедливость, мораль; его разоблачение мятежа армян и армянской церкви, как колониальной политики, проводимой царской Россией в Азербайджане.

**Цель:** выяснить роль и место литературно-философских и реалистических произведений Аббасгулу Аги Бакиханова в формировании национального сознания в Азербайджане в начале XIX века.

**Методология:** анализ в контексте историчности и логичности.

**Научная новизна:** показать суть работ Аббасгулу Аги Бакиханова в направлении оккупационной политики Царской России в Азербайджане (первая половина XIX века), в становлении и развитии национального самосознания.

**Ключевые слова:** философские произведения, существование, свобода человека, мораль, справедливость, национальное сознание, просвещение

## Giriş

Müasir dövrümüzə qədər Abbasqulu Ağa Bakıxanovun yaradıcılığından bəhs edən tədqiqatçılar onu bir alim, tarixçi və şair kimi qiymətləndirməklə yanaşı, onun fəlsəfəyə həsr etdiyi "Təhzib ül-əxlaq" və "Nəsihətnamə"əsərlərinə əsaslanaraq onu bir filosof kimi də yüksək qiymətləndirmişlər. Bəzi tədqiqatçılar Bakıxanovdan bəhs edərkən göstərirlər ki, O, Cəlaləddin Rumi kimi böyük sufi şairin təsiri ilə əsər yazdıqda panteizmə meyl etmiş, rus ədəbiyyatının təsiri ilə əsər yazdıqda isə onda realist meyllər özünü göstərir. Buna görə də Bakıxanovun yaradıcılığına birtərəfli yanaşmaq olmaz. Onun istər fəlsəfi dünyagörüşündə, istərsə də bədii yaradıcılığında nəzərə çarpan ziddiyyətlər, heç şübhəsiz ki, müxtəlif dövrlərdə müxtəlif bilik səviyyəsinə, müxtəlif əqidəyə malik olması ilə izah edilməlidir [8, 9].

Tədqiqatçılar mütəfəkkirin dinə münasibətindən bəhs edərkən göstərirlər ki, onun dini baxışına iki cəhətdən yanaşmaq lazımdır. O, bir tərəfdən dini-mərsiyə mövzusunda Füzulinin "Həqiqət üş-şühəda", Hüseyn Vaiz Kasifinin "Rövzə tüş-şühəda" və Məhəmməd Bağır Məclisinin "Cilail-quyun" adlı əsərlərindən istifadə edərək "Riyaz ül-qüds" adlı əsərini yazaraq bir fanatik şiə kimi görünürsə, "Mişkat ül-ənvar" əsərində təsəvvüf cərəyanının təsiri ilə panteist dünyagörüşünə meyl edirsə, XIX əsrin 30-cu illərinin əvvəllərində yazdığı "Mirat ül-camal", xüsusilə "Təhzib ül-əxlaq" və "Nəsihətnamə" kimi fəlsəfi əsərləri ilə artıq yetkin bir mütəfəkkir kimi nəzər diqqəti cəlb edir. Onun bu əsərlərində nə dini sxolastikadan, nə də mistikadan əsər-əlamət belə yoxdur. Əksinə, bu əsərlərdə elə motivlər vardır ki, o, bu dünya zövqünü xəyyamanə bir dünyagörüşlə axirət zövqünə qarşı qoyur və bu aləmdə fürsəti əldən verməməyə çağırır. Müəllif artıq zahid, şeyx və digər din xadimlərinin riyakarlığını açıb göstərir, dini sxolastikada təsəlli axtarmağın əleyhinə çıxaraq insanları öz müqəddəratını həll etməyə, həyata aktiv təsir göstərməyə çağırır [1, 9-10].

Bakıxanovun 1831-ci ildə qələmə aldığı "Təhzib ül-əxlaq" əsəri onun fəlsəfi dünyagörüşündə mühüm yer tutur. İslam, xüsusilə, "Quran" ayələrindən, şəriətə dair bir çox əsərlərdən, hadisələrdən, İncildəki fikirlərdən, yunan və Avropa filosoflarının əsərlərindən faydalanaraq yazdığı "Təhzib ül-əxlaq" əsəri etik-fəlsəfi mahiyyətdə olub insanları pis əməllərdən çəkindirmək, onlarda nəcib və gözəl əxlaqi dəyərlər yaratmaq mahiyyəti daşıyır. Ədalət, humanizm, vətənpərvərlik, mənəvi saflıq, doğruçuluq, təvazökarlıq və s. kimi insani keyfiyyətlər aşılayan bu əsər milli şüurun formalaşmasında fəlsəfi ideyalar aşılayan dövrü üçün ən dəyərli əsərlərdəndir.

Müqəddimə, 12 fəsil və xatimədən ibarət olan bu əsər idealist ruhlu əsər olduğundan Bakıxanov da Yaxın və Orta Şərqin digər böyük filosofları kimi dünyanın Allah tərəfindən yaradıldığına və idarə olunduğuna inanmışsa da Kainat və Allah məsələsinin, insan və Tanrı münasibətlərinin şərhində islam şəriətçiləri və ehkamçılarından fərqlənir. Öz dövrünün bir filosofu kimi o, bütün məsələlərin həllində ağılı rəhbər tutmuş və Allahı da ağılın gücü ilə dərk etməyə çalışır. Filosofa görə, dünya öz ahəngində Allahın kamil qüdrətindən asılıdır. Dünya işlərinin Allahın qüdrəti ilə yoluna qoyulması hikmətsiz deyildir. Allahın əvvəlcə yaratdığı ağıl və nur dünyanın yaranmasının ilkin zəruri şərtləridir.

Bakıxanova görə, Xaliq zəruri varlıqdır. Onun yaratdıqları isə mümkün varlıqdır. Külli-aləm onun sayəsində mövcuddur. Zəruri odur ki, onun varlığı labüddür. Mümkün odur ki, varlıq və yoxluq ona nisbətdə eyni qüvvədədir. Birinci odur ki, Onun varlığı labüddür. Çünki, onun varlığı özü ilə şərtlənir.

İkinci odur ki, varlığı onun üçün zəruri olan birinci ilə birgə mövcuddur. Sonuncu, yəni başqasının sayəsində mövcud olan öz muxtar yaradıcısına nisbətdə mümkün adlanır. Varlığı vacib olan mahiyyət, varlığı mümkün olan isə təzahürdür. Zəruri varlıq vahiddir, bütün səbəblərin ilk səbəbi, bütün varlığın və yoxluğun mənbəyidir. O, öz-özünə, həm də əbədi mövcuddur, hər şeyin zəruri başlanğıcı və sonudur. Mümkün varlıq isə əbədi və kamil deyildir və öz-özünə mövcud ola bilməz.

Bakıxanovun "vacib varlıq" və "mümkün varlıq" haqqındakı fəlsəfi görüşləri daha çox sufizmi xatırladır. O, məşhur "Təhzib ül-əxlaq" əsərində Quranın "Mən bir gizli xəzinə idim, Özümü tanıtmağı lazım bildim" ayəsinə istinadən göstərir ki, ilk başlanğıcın səbəbi "məhəbbət" oldu. Qayıdış səbəbi də yenə o olacaqdır. Ona görə də bütün sadə və mürəkkəb varlıqlarda həqiqi əlaqə eşqdir. Yaranmışların kamili olan insan Allaha həqiqi eşqi ilə yaxınlaşa bilər. Bu fikirlərdən görünür ki, Bakıxanov təfəkkürün varlığa münasibəti nəticəsində Şərq fəlsəfi dünyagörüşündə dəbdə olan "Vəhdəti-vücud" (varlığın vəhdəti) anlayışının panteist-sufi konsepsiyası mövqeyində durur.

Ümumiyyətlə, XIX əsrin 30-40-cı illərindən başlayaraq Quzey Azərbaycanda real sosial həyatın dəyişməsi, dünya və insan haqqında elmi və fəlsəfi təsəvvürlərin dərinləşməsi varlığın mahiyyətini yeni baxımdan fəlsəfi anlamını dövrün filosof-maarifçiləri mühüm bir problem kimi irəli sürməyə başlamışdılar ki, bu məsələdə Bakıxanov, Zərdabi özlərinə məxsus mövqe tutmuşdular.

Bakıxanovun "Varlıq nəzəriyyəsi" ilə bağlı fikirləri bütövlükdə onun yaradıcılığı və dünyagörüşü kimi, bir tərəfdən orta əsrlə, digər tərəfdən isə yeni dövrlə bağlı olmuşdur. Mütəfəkkir bu iki dövrün xüsusiyyətlərini özündə cəmləşdirərək varlığın mahiyyətini həm dini və həm də elmi cəhətdən izah etməyə çalışmışdır. O, metafizikanın bütün məzmununu fövqəltəbii qüvvəyə malik ilahi varlığa bağlayır, bu mənada islam prinsiplərinə söykənərək mühakimələrini Qurani-Kərimin ayələri ilə və digər müqəddəs sayılan Peyğəmbər hədisləri ilə əsaslandırmağa çalışırdı.

Bakıxanova görə, "aləmin bütün cüzlərində Vacib ül-Vücudun, (yəni Allahın – R.Ə.) zatından başqa həqiqi təsiredici bir qüvvə yoxdursa insana hər bir iş görmək üçün ixtiyar və bacarıq verilmişdir. İnsan bir işi görməklə savab və ya günah qazana bilər. Dünyada heç bir şey təbiətin ziddinə çıxa bilməz. Şeylər öz varlıqlarında gözlənilən vəzifəni icra etməyə bilməzlər. Lakin insan müstəsnadır. Çünki, o, bir işi görmək və ya görməməkdə faili-muxtardır. Bu səbəbdən də o, həm yaxşı, həm də pis iş görə bilər. Aləmdə əsl məqsəd və həqiqi məsləhət xeyirdən ibarət olduğu üçün aləmin ən şərafətli cüzi olan insan da gərək həmişə yaxşılıq etməyə çalışsın və bilsin ki, əxlaqı təmizləyib islah etməkdən və maarif təhsil etməkdən məqsəd yaxşılıqdır" [2,26].

Filosof göstərir ki, "Həqiqi yaxşılıq odur ki, onda ümumun mənfəəti var: ümumun mənfəəti xatirinə xüsusi zərəri qəbul etmək lazımdır. Yaxşılıq edən insanın qazancı rahatlıqdır. Rahatlıq isə var-dövlətdə, rütbədə deyil, haldadır. Mütəfəkkirin fikrincə, "rahatlığın yüksək dərəcəsi etidaldır (bir bərabərdə olma, bir ölçüdə olma – R.Ə.). Adam gərək elə etməsin ki, tayları ona qibtə etsin, eyni zamanda özünü o yerə yetirməsin ki, onların nəzərində xar olsun. Hər bir böyük və kiçik iş üçün orta bir hədd vardır ki, bütün hallarda bəyənilən və rahatlıq axtaranlar üçün zəruridir" [2, 29].

Uzun müddət panteist-sufi konsepsiyası mövqeyində olan Bakıxanov XIX əsr Azərbaycan oxucularını o dövrün elmi nailiyyətləri ilə tanış etmək məqsədi ilə yazdığı və 1846-cı ildə Məkkəyə ziyarətə gedərkən yolüstü Türk Sultanı I.Əbdülməcidə təqdim etdiyi "Kainatın sirləri" ("Əsrar ül-məlakut") adlı əsərində isə mütəfəkkir Yerin vəziyyəti, onun günəş ətrafında fırlanması, Kainatın quruluşu, səma cisimlərinin yaranması və məhv olması, göydəki ağ ləkələr, sabiq ulduzlar toplusu, hərəkətin labüdlüyü və s. haqqında özünəməxsus elmi-fəlsəfi müddəalar irəli sürmüşdür.

Vətənini, xalqını dünyanın sivilizasiyalı ölkələri və xalqları sırasında görmək istəyən Bakıxanov ən çox kamil insana, düşünən zəkaya ümid bağlamış və bu məqsədlə də mövcudatın ən şərəflisi, əvəzsiz varlığı kimi səciyyələndirdiyi "İnsan ideyası"nı qnoseoloji aspektdə əsaslandırmağa çalışmışdır. İnsanların idrak qüdrətinin mahiyyətini açmaq, dünya və onun qanunlarını dərk etməyin forma və vasitələrini aydınlaşdırmağın, elmi bilikləri əldə etməyin, insanın özünü və ətraf mühiti dərk etməsinin yollarını göstərmək Bakıxanovun dünyagörüşünün əsas amillərindən biridir. İnsan həyatında idrakın mühüm əhəmiyyətindən bəhs edən filosof göstərir ki, insanda şüur artarsa, o, şərafətə yüksələr, insan idrak sayəsində günəş kimi nur saçır. Hətta ilk dövrlərdə Quran ayələrini elmi əsaslarla, fiziki hadisə,

proses və qanunauyğunluqları Allah kəlamları ilə şərh etməyə çalışsa da Bakıxanov "Yaradan ruzini verəcəkdir" kimi dini fikri qəbul etməmiş, "əməksiz insan yaşaya bilməz" ideyasını irəli sürmüş və göstərmişdir ki, insana elm və bilik vasitəsilə örtülü sirlərdən xəbərdar olmaq qabiliyyət və bacarığı verilmişdir. Hər bir kəs idrakı vasitəsilə elm və əməlin faydalarını əldə etmək üçün düşünüb tapmalı, həqiqəti anlamalıdır.

"Ən faydalı şey igidlik, ən yaxşı şey xeyirxahlıq, ən zəruri şey ədalətlilikdir" – deyən mütəfəkkirin fikrincə, "Cəmiyyət" insanların öz tələbatını ödəmək üçün lazım olan birgə yaşayışıdır. Filosofa görə, ehtiyacdan irəli gələn bu əlaqə "məişət tərzi adlanır.

"Hökmranlıq nəfsə məhkumluq, azadlıqdan məhrumluq deməkdir" – deyən mütəfəkkir, xalqa zülm edənlərin düşməni idi. O, müstəbidləri, zalımları "xalqın cəlladları" adlandırır, onları ədalətsizlikdə ittiham edir, ədalətsiz hökmdarları və onun yaxın adamlarını tənqid və rüsvay edirdi. Ümumiyyətlə, Bakıxanov monarx hakimiyyətini, onun xalqa qarşı özbaşınalıq və qanunsuzluqlarını ifşa edir və belə hesab edirdi ki, şəri cəzalandırmaq lazımdır. Dünya elə qurulmuşdur ki, şər mütləq cəzalandırılmalıdır. Ta qədimdən belədir ki, "kim başqasına quyu qazırsa, özü ora düşür" – deyən filosof ədalətli monarx hakimiyyətinin tərəfdarı olmaqla yanaşı göstərirdi ki, hökmdar xalqı müdafiə etməli, xalqı incitməməli, ölkəni idarə etmək məharətinə malik olmalı, vaxtını boş-boşuna keçirməməli, ölkənin rifahı üçün çalışmalı, hakimiyyətdən sui-istifadə etməməlidir. Xalqın qayğısına qalacaq monarxın zəkalılığına böyük ümidlər bəsləyən mütəfəkkirin firincə, dinsiz, lakin ədalətli hökmdar dindar müstəbiddən yaxşıdır, çünki, ədalətli hökmdarı şöhrət, onun ölkəsini isə zənginlik gözləyir.

Məqsədləri elm, bilik öyrənmək, cəmiyyətə xeyir vermək, xalqın qeydinə qalmaq deyil, var-dövlət, sərvət toplamaq, xalqı incitmək olan saray məmurlarını tənqid edərək göstərir ki, insanlığın məziyyətinin meyarı sərvət, var-dövlət yığmaq deyil, bilikdir, elmdir, ədalətdir.

Hüquqi məsələləri xeyirlə şərin münasibəti, edilən əməl üstündə ədalətli cəza verilməsinin zəruriliyini irəli sürən Bakıxanova görə, edilmiş pislik insanların səadəti naminə mütləq cəzalandırılmalıdır. Cəzasızlıq özü şərdir, çünki, insanlara pislik gətirir. Ona görə də başqalarına zərər yetirən adama yaxşılıq etmək olmaz. Belə adam və ya adamlara yaxşılıq edən şəxs deyə bilməz ki, yaxşı iş görmüşdür çünki, o, başqalarının iztirabına səbəb olmuşdur. Doğrudur, "bağışlamaq" yaxşı keyfiyyətdir, lakin bu şərtlə ki, o, başqalarının iztirabına, fəlakətinə səbəb olmasın. Minlərlə adamın rahat yaşaması üçün bir adamı cəzalandırmaq gərəkdir ki, ədalət öz yerini tapsın. Müqəssiri cəzalandırmaq lazımdır ki, başqaları şər əməldən çəkinsin .

Tədqiqatçılar göstərirlər ki, Bakıxanov A.A. tarixi prosesi siyasi hadisələr prizmasından, başqa sözlə, hökmdarların, qanunvericilərin, istilaçıların əməlləri və xalq əleyhinə siyasəti baxımından araşdırır. Mütəfəkkir tarixi prosesi, ictimai hadisələri tədqiq və təhlil edərək xalqı sayıqlığa və siyasi yetkinliyə çağırır, beləliklə, onun siyasi şüurunun yüksəlməsini zəruri sayırdı. Bakıxanovun keçmişə aid təsviri gələcəyə rəhbərlik etməyə xidmət edir. Mütəfəkkir bildirirdi ki, tarix öz keçmişini bilmək istəyənlərin əxlaqi tərbiyəsini həyata keçirməli, onların dünyagörüşünü zənginləşdirməli, həyat tərzini, məişətində təşəkkül tapan xüsusiyyətləri öyrətməlidir [3, 394-395].

Əgər Bakıxanov yaradıcılığının başlanğıcında Quzey Azərbaycanın Rusiyaya birləşdirilməsini xarici hücumların aradan qalxması kimi müsbət qiymətləndirirdisə, sonralar Çar Rusiyasının Azərbaycanda yeritdiyi müstəmləkə8rçilik siyasətinin zərərli olduğunu dərk etmiş, çar Rusiyasının bir sıra yüksək vəzifəli rəsmi şəxslərinə göndərdiyi qeydlərində çar hakimiyyəti tərəfindən ermənilərin və erməni kilsəsinin Azərbaycan xalqı və müsəlmanlar əleyhinə siyasi fitnəkarlığının müdafiə olunduğunu ifşa edirdi [3, 395-396].

Bakıxanovun Azərbaycan milli şüurunun formalaşmasında onun azadlıq, ədalət, əxlaq kimi fəlsəfi kateqoriyalara münasibəti mühüm rol oynayır. Bakıxanov göstərir ki, insanın ən mühüm məqsədi məhz azadlığa nail olmaqdan ibarətdir. O, göstərir ki, azadlıq özbaşınalıq, ifratçılıq deyil, azadlıq ifrat dərəcəyə çatdıqda artıq özbaşınalığa çevirilir. Mütəfəkkir insan

azadlığının, azad fəaliyyətinin müəyyən əxlaqi və ədalət qaydaları ilə tənzimlənməsini məqsədəuyğun sayırdı.

Bakıxanovun özünəməxsus xüsusi əxlaqi görüşü vardır. O, cəmiyyətdə baş verən mühüm hadisə və proseslərə bütövlükdə əxlaqi norma və prinsiplərlə yanaşırdı. Filosofun fikrincə, əxlaqi normalar nisbi xarakter daşıdığından eyni dövlət tərkibində yaşayan müxtəlif xalqların, millətlərin, hətta ayrı-ayrı tayfaların, fərdlərin əxlaq haqqındakı təsəvvürləri eyni deyildir. Ona görə də onlar tarixən insan cəmiyyətləri tərəfindən qəbul edilmiş ümumi vahid əxlaqi qaydalar tətbiq etmək lazımdır. Bu məqsədlə filosof özünün məşhur "Təkzib ül-əxlaq" əsərində əxlaqın mühüm qaydaları olan gözəl rəftardan, həqiqi dostluqdan, təvazökarlıqdan səxavətlilikdən, insafdan və bunların ziddi olan pis rəftardan, düşmənçilik münasibətlərindən, paxıllıqdan, tamahkarlıqdan, acgözlükdən, xəsislikdən, israfçılıqdan geniş şəkildə bəhs edərək bütün bunlara öz fəlsəfi baxışlarını irəli sürmüşdür.

Filosof rəftar qaydalarından bəhs edərkən göstərir ki, ən gözəl rəftar "dostluq"dur. Dostluqdan alınan ləzzət "ləzzətlərin ən yaxşısıdır". "Dost ürəyin darıxdığı vaxt sənə munis (istiqanlı hər kəslə ünsiyyət edən, istənilən adam – R.Ə.) və münasibətdə şərik olar, maddi cəhətdən çətinlik çəkdiyin zaman sənin əlindən tutar. Çətinliyə düşdükdə xilas olmağın üçün çarə axtarar. Nöqsanlarından və eyiblərindən səni xəbərdar edər və cürbəcür nəsihətlərlə səni pis işlərdən çəkindirər" [2, 44].

"İnsan dostluğu da ifrat dərəcəsinə çatdırmamalı və sirlərini açmaqla öz ixtiyarını özgəsinə tapşırmamalıdır: çünki, dostu onunla düşmən olduğu vaxtda onu aciz edə bilər. Düşmənçiliyi də o dərəcəyə çatdırmamalıdır ki, bir gün o düşmən dost olduqda insan etdiyi pisliklərdən xəcalət çəksin" deyən mütəfəkkir digər əxlaq qaydalarında olduğu kimi dostluq və düşmənçilik məsələlərində də orta həddi olduğu kimi dostluq və düşmənçilik məsələlərində də orta həddi "qızıl orta" qaydasını gözləməyi məsləhət bilir.

İnsanlar arasında "müdəra" – üzə gülən, mənfəət əldə etmək üçün "zahiri" və "həqiqi" dostluqdan bəhs edən mütəfəkkir üstünlüyü "həqiqi dostluğa" verərək göstərir ki, ən yaxşı dostluq "bilikli və dünya vəziyyətindən yaxşı xəbərdar olduğu üçün həqiqi dost axtaranların dostluğudur. Bu cür dostluq az tapılar. Lakin belə dost ələ düşərsə onun yolunda mal nədir, bəlkə canından da keçmək olar" [2, 45].

Dünya malına və vəzifəyə aludə olan adamla dostluq etməməyi təkidlə vurğulayan ədib göstərir ki, "çünki, belə adam zərurət vaxtında insanlığın bütün şərtlərini pozar... Onun düşmənçiliyi də möhkəm olmaz. Çünki, onun düşmənçiliyi vaxtın tələbinə görədir. Xasiyyətində yaxşılıq və mürüvvət (mərhəmət, mərdlik, insaniyyət – R.Ə.) olan adamın təbiəti həmişə dostluğa meyl edər" [2, 46-47].

Mütəfəkkir təvazökarlıq, insaf, qənaət və qənaətçiliyin şərtlərindən bəhs edərkən göstərir ki, "təvazökarlıq, insan vücudunun yaraşığı, zahiri və mənəvi mənfəətlərin mənbəyidir". "İnsaf, pakizə (təmiz, pak, gözəl, saf – R.Ə.) xasiyyət, insan təbiətinin bəzəyidir. İnsaf, yaradılışın saflığından və qəlbin incəliyindən gəlir. İnsaf elə bir aynadır ki, insan öz işlərinin yaxşı və yamanını onda görə bilər. İnsaf, səlamətliyə və işin gözəl nəticə verməsinə səbəb olar. İnsaf, insanın bütün prinsiplərinin bütün pisliklərinin mənbəyi olan zülmdən onu saqındırar!" Qənaət, puç olmayan dövlət və sabit bir nemətdir [2,53-56].

Filosof paxıllıq, tamahkarlıq, acgözlük, xəsislik, israfçılıq kimi xüsusiyyətləri pisləyir və bunları "batini çirkinlik" hesab edir və göstərir ki, paxıllıq odundan yandırıcı od hələ ki, görünməmişdir. Paxıl adam heç bir zaman farağat yaşaya bilməz. Özünün qəmi və başqalarının şadlığı onun küdurətinə səbəb olur. Tamah, müsibətin ən şiddətlisi olduğu üçün tamahkar adam daim qəmgin olar; nə qədər varı olsa da yenə deyər azdır. Həmişə varını artırmaq fikrində olar. Bu sifətdən uzaq olan adam həmişə xoşəxlaq olar və bəlkə də bu səbəbdən Allahın yanında saleh adamlardan sayılır [2,53-56].

Bakıxanov əxlaq gözəlliyindən bəhs edərkən göstərir ki, bu xüsusiyyət hər adamda fitri olarsa, o adam "heç kəsi incitməz, özünün başqası tərəfindən incidilməsinə də çox fikir verməz, ona güzəşt edər. Əksinə, bədmizacdan (sərt xasiyyətli, qaba kobud adamdan – R.Ə.) xalq əziyyət görər. Beləsini razı salmaq çətin-

dir; o, səbəbsiz olaraq xalqı incitməyə başlar, xalq da o bədmizaca düşmən olar" [2, 4].

İnsan əxlaqının tənzimlənməsi ilə əlaqədar düşüncələrini, fəlsəfi baxışlarını da irfan (təsəvvüf fəlsəfəsində Allahı dərk etmə – R.Ə) baxımından izah etməyə çalışan filosof, əxlaqın təmizlənib saflaşmasında ilahi nurla işıqlanmış ürəyin rolunu, onun müstəqil fəaliyyətini vacib sayır və göstərir ki: Məmləkətin əsayişini nizama salmaq siyasət işlərinin möhkəmlənməsinə bağlı olduğu kimi, əxlaqı təmizləyib safa çıxarmaq da ürəyin bədən rəyasətində müstəqil olmasına bağlıdır" [2, 67].

Tədqiqatçılar Bakıxanovun bu fikirlərini onun ümumi dünyagörüşü ilə əlaqələndirərək göstərirlər ki, yeni dövrün analitik düşüncə, böyük zəka sahibi kimi Bakıxanov, təkcə poeziyada deyil, bədii nəsr və elmdə də sufizm, irfan və təsəvvüf fəlsəfəsini yaşadığı dövrün ictimai-siyasi düşüncələri, özünün maarifçi-fəlsəfi görüşləri ilə vəhdətdə təqdim edir, cəmiyyətdə və şəxsiyyətdə gördüyü mənəvi əxlaqi naqisliyi bir tərəfdən orta əsrlərin mütəsəvvif ziyalısı, ikinci tərəfdən də XIX yüzilin maarifçi mütəfəkkiri kimi pisləyir və rədd edirdi [4, 3].

Azərbaycan fəlsəfi fikir tarixində orta əsrlərdən yeni dövrə keçidi hazırlayan, öz yaradıcılığında bunu əks etdirən əsərlərində həm orta əsrlərin bədii-estetik və fəlsəfi prinsiplərinə ciddi surətdə əməl edən, həm də yeni dövrün ictimai-fəlsəfi tələblərini nəzərə alan Abbasqulu Ağa Bakıxanov Qüdsi XIX əsrin birinci yarısında orta əsrlərin ədəbi-bədii, elmi və fəlsəfi ənənələrini yaşadaraq Azərbaycan fəlsəfi, düşüncəsinin yeni dövrünü Şərq bədii-fəlsəfi düşüncəsi, İslami əxlaq prinsipləri mənəvi saflıq ideyaları ilə zənginləşdirərək Azərbaycanda milli şüurun formalaşmasında mühüm rol oynamışdır.

Öz əsərlərində Şərqi Qərblə, Avropanı Asiya ilə vəhdətdə təsvir etməyə çalışan, ənənəvi Şərq dəyərlərini yeni fəlsəfi dünyagörüş mövqeyindən dəyərləndirərək Abbasqulu Ağa Bakıxanov müasir düşüncəli mütəfəkkir kimi öz əsərləri ilə Azərbaycanda və ümumən Yaxın İslam Şərqində orta əsrlərə yekun vurmuş, yeni dövrə keçid üçün əsaslı zəmin yaratmışdır.

Azərbaycanda dövrünün siyasi, ideoloji və fəlsəfi fikrinin aparıcı xadimlərindən biri və birincisi olan Abbasqulu Ağa Bakıxanov azadlıq, demokratiya, müstəqillik və ictimai tərəqqi tərəfdarı olmuş, öz elmi və fəlsəfi fikirləri ilə Azərbaycanda milli ideologiyanın inkişafına mühüm təsir göstərmiş, özündən sonrakı Azərbaycan mütəfəkkirlərinin yolgöstərəni olmuşdur. Mirzə Kazım bəy, Mirzə Fətəli Axundov, Həsən bəy Zərdabi, Əlibəy Hüseynzadə və digər mütəfəkkirlərin ictimai-fəlsəfi baxışları, milli azadlıq, siyasi müstəqillik, demokratik cəmiyyət, seçkili hakimiyyət barədə fikir və düşüncələri həm də Bakıxanovun ideyaları zəminində formalaşmışdır [4, 4-5].

## İstifadə edilmiş ədəbiyyat


1. Abbasqulu Ağa Bakıxanov Qüdsi, Bakı, 1964.
2. Abbasqulu ağa Bakıxanov, Seçilmiş əsərləri, Bakı, Yazıçı, 1984.
3. Əfəndiyev Məcid. Siyasi və hüquqi təlimlər tarixi, Bakı – 2006.
4. Əsgərli Zaman, Bakıxanov – Qüdsi, Bakı, "Elm", 2005.
5. Ələkbərli F.Azərbaycan Türk fəlsəfəsi və ictimai fikir tarixi (XIX-XX əsrlər). I his.
7. Rüstəmov İ. Ə., Abbasqulu Ağa Bakıxanov, Bakı, Elm, 1981.
8. Sultanov M. Abbasqulu Ağa Bakıxanov Qüdsinin əbədi irsi haqqında, Abbasqulu Ağa Bakıxanov Qüdsi, Bədii əsərlər, Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1964.



**Rəyçi:** **Fəlsəfə üzrə fəlsəfə doktoru Rəşad Əsgərov**

**Göndərilib: 18.03.2024** **Qəbul edilib: 22.03.2024**